# Ermənistan qərbi azərbaycanlıların qayıdış hüququnu tanımalıdır

**Ermənistan və onun havadarları Azərbaycanda və Cənubi Qafqazda azərbaycanlılara qarşı genişmiqyaslı soyqırımı, deportasiya və etnik təmizləmə siyasəti həyata keçirdilər. Bu dövr ərzində Azərbaycan xalqının başına gətirilən faciələr yalnız regional deyil, həm də beynəlxalq miqyasda ciddi narahatlıq doğurdu. 2020-ci il sentyabrın 27-də başlayan müharibə 200 ildən artıq davam edən ədalətsiz siyasətin sona yetməsi üçün əhəmiyyətli bir dönəm oldu. Azərbaycan xalqı əsrlər boyu qarşılaşdığı zülm və təzyiqlərə son qoymaq üçün mühüm bir mərhələ keçdi.**

İndiki Ermənistan ərazisində yaşamış azərbaycanlıların deportasiya tarixi 1820-1988-ci illər olmaqla böyük bir dövrü əhatə edir. Soydaşlarımız illərlə, mərhələli şəkildə davam edən bu proses zamanı ağır insan haqları pozuntularına məruz qalıblar. Yüz illərlə yaşadıqları ata-baba yurdlarından zorla qovulmaları, onların fiziki və mənəvi əzablara düçar edilməsi təkcə azərbaycanlılara qarşı deyil, ümumilikdə bəşəri dəyərlərə qarşı törədilmiş cinayətdir.

Minilliklər boyu formalaşmış maddi-mədəni irsimiz Qərbi Azərbaycandakı soydaşlarımızın izlərini silmək üçün məqsədyönlü şəkildə aparılan siyasət nəticəsində məhv edilib. Tarixi abidələr dağıdılıb, toponimlər dəyişdirilib, qəbiristanlıqlar, məscidlər, mədrəsələr yerlə yeksan olunub, mədəniyyət nümunələrimiz saxtalaşdırılaraq başqa xalqlara aid edilib.

Nəhayət, ötən bu dövr ərzində etnik təmizləməyə məruz qalan soydaşlarımız doğma yurdlarını tərk etməyə məcbur olublar. Hazırda əksəriyyəti Azərbaycanda yaşayır. Hətta Türkiyə, Almaniya, Gürcüstan, Qazaxıstan, Özbəkistan və digər ölkələrə köçənlər də çoxdur. Təkcə Türkiyə Cümhuriyyətində 1,5 mindən çox qərbi azərbaycanlı var və onların hamısı ata-babalarının vaxtilə zorla qovulduqları o yurda qayıtmaq istəyir.

Tarixi ədalətin bərpa edilməsi, soydaşlarımızın öz doğma yurdlarına geri qayıtmaları beynəlxalq hüquqa əsaslanan, legitim bir tələbdir. Bu tələbi dünyanın tərəqqipərvər insanları, tanınmış insan hüquqları müdafiəsi ilə məşğul olan hökumət və qeyri-hökumət təşkilatları beynəlxalq konvensiyalarda təsbit edilmiş hüquqa əsaslanan bu tələbi haqlı hesab edərək qərbi azərbaycanlıların sülh yolu ilə təhlükəsiz və ləyaqətli şəkildə geri qaytarılmasını dəstəkləyir və qanunauyğun hesab edirlər. Deyilənlər İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Nazirlər Şurasının bu günlərdə İstanbul şəhərində keçirilən 51-ci sessiyasında da öz əksini tapıb.

Qərbi Azərbaycan İcması Ağsaqqallar Şurasının sədr müavini, Əməkdar elm xadimi, professor Vaqif Şadlinski bu barədə müxbirimizə demişdir:

- Prezident İlham Əliyevin yaradıcısı olduğu Qərbi Azərbaycan İcmasının fəaliyyətində, müəllifi olduğu Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının həyata keçirilməsində uğurlu nəticələr müşahidə olunmaqdadır. Dövlətimizin başçısının 24 dekabr 2022-ci ildə Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə icmanın qarşısında duran vəzifələrdən danışarkən "Qərbi Azərbaycan İcmasının bundan sonra daha mütəşəkkil formada fəaliyyət göstərməsi hamımız üçün - həm Qərbi Azərbaycandan olan insanlar üçün, həm də bütün Azərbaycan xalqı üçün çox önəmlidir" deməsi reallıqda öz təsdiqini tapmışdır. Artıq Qərbi Azərbaycan İcması dünya siyasətində fəal rol oynayır. İcmanın beynəlxalq insan hüquqlarını müdafiə qanunlarının tələblərindən irəli gələn bəyanat və müraciətləri dəfələrlə Birləşmiş Millətlər Təşkilatının (BMT) katibliyi, BMT Təhlükəsizlik Şurası və Baş Assambleyanın rəsmi sənədləri kimi yayılıb. Bu istiqamətdə icmanın təşəbbüsü ilə indiyədək BMT-nin rəsmi sənədi kimi 10-dan artıq bəyanatı və müraciəti bəyənilib. İstanbulda keçirilən İslam Əməkdaşlıq Təşkilatı Xarici İşlər Şürasının 51-ci sessiyasında qəbul edilən qətnamələr buna bariz nümunədir. Sessiyada qəbul olunan qətnamələr çeşidi və əhəmiyyəti ilə dünya siyasətçilərinin diqqətini özünə cəlb edib. Bu dəfə nüfuzlu beynəlxalq təşkilat Azərbaycanın irəli sürdüyü bütün təşəbbüsləri dəstəkləməklə, haqq işimizin dünyanın diqqətinə çatdırılması kimi gərəkli missiyanı yerinə yetirmiş oldu. Xatırladım ki, sessiyasının yekunlarına dair "İstanbul Bəyannaməsi", habelə ölkəmizin təşəbbüsü ilə irəli sürülmüş 5 qətnamə qəbul edilib. İƏT çərçivəsində ilk dəfə olaraq qəbul olunan "Hazırkı Ermənistan ərazilərindən zorla və sistemli şəkildə didərgin salınmış azərbaycanlıların qayıdış hüququ" adlı qətnamədə İƏT üzv ölkələrinin Qərbi Azərbaycan İcmasının öz yurdlarına ləyaqətli qayıdış hüququna dəstəyi ifadə olunub, habelə Ermənistan tərəfindən sözügedən icmanın hüquqlarının inkar olunması pislənilib.

Qeyd edilən qətnamə ilə yanaşı, Azərbaycan və Ermənistan arasında normallaşma prosesində əldə olunan irəliləyişlər alqışlanır, habelə Ermənistan tərəfi sülh müqaviləsinin imzalanmasının qarşısında duran siyasi və hüquqi çağırışların aradan qaldırılmasını tələb edir. Bəyannamədə həmçinin Ermənistanın təcavüzü nəticəsində öz yurdlarından didərgin düşən məcburi köçkünlərin ləyaqətli geri qayıdışını təmin etmək istiqamətində Azərbaycanın yenidənqurma və minatəmizləmə səylərinə dəstək ifadə edilib. Bəyannamədə o cümlədən indiki Ermənistan ərazilərindən zorla qovulmuş azərbaycanlıların geri qayıdış hüququnun mövcudluğu təsdiqlənir və Ermənistan tərəfinin Qərbi Azərbaycan İcması ilə dialoqu rədd etməsi qınanılır.

"1992-ci il Xocalı qətliamı qurbanları ilə həmrəylik" adlı qətnamədə Ermənistan Respublikası silahlı qüvvələri tərəfindən 1992-ci ilin fevralında Qarabağda - Xocalı şəhərində, habelə Azərbaycanın əvvəllər işğal olunmuş digər ərazilərində törədilən müharibə cinayətləri, insanlıq əleyhinə və soyqırımı cinayətləri bir daha qətiyyətlə pislənir, üzv dövlətlər törədilmiş cinayətlərin tanınması üçün lazımi səyləri göstərməyə çağırılır. "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünün nəticələrinin aradan qaldırılması" adlı qətnamədə Ermənistanın Azərbaycana qarşı nəticələrinin hələ də davam etdiyi təcavüzü bir daha qətiyyətlə pislənir, Azərbaycanın postmünaqişə dövründə işğaldan azad olunmuş ərazilərində apardığı bərpa və yenidənqurma işlərinə dəstək ifadə olunur.

"Azərbaycan Respublikasına iqtisadi dəstək" adlı qətnamədə isə İƏT üzv dövlətləri, habelə islam maliyyə institutları ölkəmizin yenidənqurma, habelə minatəmizləmə fəaliyyətinə kömək göstərməyə çağırılır. "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində Azərbaycan Respublikasının ərazilərində islam dininə aid tarixi və mədəni abidələrin və izlərin dağıdılması və təhqir olunması" adlı qətnamədə keçmiş işğal dövründə Ermənistan tərəfindən Azərbaycan ərazilərində islam mədəni irs nümunələrinə qarşı törədilən vandalizm aktları qətiyyətlə pislənir və Ermənistanın bu cinayətlərinə görə Azərbaycanın irəli sürdüyü reparasiya tələbi dəstəklənir.

Qərbi Azərbaycan İcmasının mətbuat katibi Ülviyyə Zülfiqarlı açıqlamasında "İstanbul Bəyannaməsi"ni yüksək dəyərləndirərək bildirmişdir ki, Qərbi Azərbaycana qayıdış məsələsinə beynəlxalq dəstəyin əldə edilməsi istiqamətində növbəti böyük uğur əldə edilmişdir. İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Nazirlər Şurasının İstanbul şəhərində keçirilmiş 51-ci sessiyasının yekun Bəyannaməsinə Qərbi Azərbaycan məsələsi barədə bənd daxil edilmiş və sessiyada bu məsələ ilə bağlı ayrıca qətnamə qəbul edilmişdir.

Sözügedən sənədlərdə İƏT üzv dövlətləri Ermənistan tərəfindən qərbi azərbaycanlılara qarşı törədilmiş deportasiyanı, onların mədəni irsinin dağıdılmasını və icmanın qayıdış hüququnun inkar olunmasını qınayır. Üzv dövlətlər qərbi azərbaycanlıların öz yurdlarına təhlükəsiz şəkildə və ləyaqətlə qayıdışına birmənalı dəstək ifadə edirlər. "Hazırkı Ermənistan ərazisindən zorla və sistematik şəkildə didərgin salınmış azərbaycanlıların qayıdış hüququ" adlı qətnamənin qəbulu ilə Qərbi Azərbaycan məsələsi İƏT-in gündəliyində əsas mövzulardan biri kimi təsbit olunmuş və İƏT icra strukturlarına bu mövzu ilə müntəzəm məşğul olmaq tapşırılmışdır.

Xatırladaq ki, Azərbaycan rəhbərliyinin təşəbbüsü ilə ötən il İƏT Bancul Zirvə görüşündə Qərbi Azərbaycan mövzusunda qəbul edilmiş qərardan sonra İƏT Nazirlər Şurasının sözügedən qərarları qəbul etməsi təşkilatın bu məsələdə ardıcıl və prinsipial yanaşma mövqeyini göstərir.

Qərbi Azərbaycan İcması sözügedən qərarların beynəlxalq hüququn və insan hüquqlarının aliliyinin, bölgədə sülh, barışıq və ədalətin bərqərar olunmasına töhfə verəcəyinə inanır. İcma İƏT Nazirlər Şurasının bu qərarlarını ürəkdən alqışlayır və bu qərarların qəbul edilməsinə görə İƏT üzv dövlətlərinə təşəkkür edib.

Görünən odur ki, yüz minlərlə soydaşımızın Qərbi Azərbaycana qayıdışı qaçılmaz proses hesab olunur. Azərbaycanın hansı bölgəsində yaşamasından asılı olmayaraq, dədə-baba yurdlarından zorla didərgin salınmış soydaşlarımızın geri qayıtmaq istəyi qanuna, haqqa, ədalətə söykənir. Qərbi azərbaycanlılar doğma yurdlarına qayıdışa israrlıdırlar və bunun üçün Ermənistandan beynəlxalq səviyyədə təminat tələb edirlər.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 26 iyun (№ 130).- S.15.